# TƏŞKİLATIN UĞURLU FƏALİYYƏTİ ÜÇÜN EFFEKTİV STRATEGİYANIN OLMASI ÖNƏMLİDİR

Sürətlə dəyişən müasir dünyada səmərəli fəaliyyət göstərmək istəyən hər bir şirkət və ya təşkilat özündə müəyyən yenilikləri əks etdirməklə yanaşı, onların tətbiqinin də həyati məna kəsb etdiyinin zəruri olduğunu başa düşür. Bu yeniliklər içərisində isə, "strateji planlaşdırma" anlayışının öz cəlbedici mövqeyi qabarıq şəkildə əks olunmaqdadır. Bəzən təşkilatlar planlaşdırmanın çox vaxt aparması səbəbi ilə onu əhəmiyyətsiz və artıq bir iş hesab edirlər. Lakin, dünya təcrübəsinə müraciət etdikdə, bunun tamamilə səhv bir fikir olduğunu əyani şəkildə görmək mümkündür. Planlaşdırma prosesi bir neçə istiqaməti əhatə edir ki, onlardan biri də proqnozlaşdırmadır. Daha doğrusu, təşkilatın strateji məqsədlərinin əldə edilməsi yollarının hazırlanmasıdır. Strateji planlaşdırmanın ən diqqət çəkən amillərindən biri də xarici mühitin təsiridir. Xarici mühitin əvvəlcədən təhlil edilməsi təşkilata öz resurs və potensialını analiz etmək imkanı verir.

Müqayisə üçün qeyd etmək lazımdır ki, əgər Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1999-cu ilə qədər tamamilə xarici donorlardan asılı vəziyyətdə idisə, artıq 2000- ci ildən başlayan mərhələli inkişaf strategiyası əsasında həyata keçirilən fəaliyyətlərin nəticəsi olaraq, kifayət qədər uğur əldə etmişdir. Əsas uğurlardan biri isə, Qafqaz regionunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ölkə üzrə fəaliyyət göstərən fəal yerli bölmə və regional mərkəz strukturlarının mövcud olmasıdır. Təşkilat üzvlərinin və könüllülərinin sayı ildən-ilə artmaqdadır.

Ötən illər Cəmiyyətin fəaliyyət istiqaməti çoxsahəli olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada müxtəlif zəruri layihələri uğurla həyata keçirmişdir. Bu da 2008-2010-cu illəri əhatə edən Strateji Plana uyğun olmuşdur. Xüsusilə, sosial sahəyə önəm verilmiş və bu istiqamətdə layihələr əhalinin sağlamlığı naminə maarifləndirmə işlərinin gücləndirilməsinə yönəldilmişdir.

İnkişaf etmiş Milli Cəmiyyətlər dövlətin onlara verdiyi imtiyazlardan səmərəli istifadə edərək fəaliyyətləri üçün maddi bazanın möhkəmləndirilməsinə nail olmuşlar. Bunun sayəsində onlar humanitar proqramların həyata keçirilməsində heç bir çətinliklə, o cümlədən də maddi çətinliklərlə üzləşmirlər.

91 il şərəfli tarixi yol keçmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar sahədə hökumətin ən etibarlı dayaqlarından birinə çevrilmişdir. Bu səviyyəyə gəlib çatmasına əsas səbəb isə dövlət başçısının müvafiq fərman və sərəncamları ilə öz hüquqi bazasını daha da möhkəmləndirən Milli Cəmiyyətin daim dövlətin qayğısı ilə əhatə olunmasıdır. Respublika prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyev hər zaman Cəmiyyətimizə qayğı ilə yanaşmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yeni 2011-2015-ci illəri əhatə edən Strateji Planının hazırlanması prosesinə gəldikdə isə, bu bilavasitə interaktiv şəkildə olmuşdur. Bu proses yerli bölmə və regional mərkəzlərin, həmçinin, tərəfdaşlarımız olan Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Federasiya ilə məsləhətləşmələr vasitəsilə həyata keçirilmişdir. Az.QAC-ın strategiyası Beynəlxalq Hərəkatın standartlarına uyğun və fundamental prinsiplər əsasında qurulmuşdur. Bu da bütün Milli Cəmiyyətlərin, o cümlədən də Az.QAC-ın Beynəlxalq Hərəkat çərçivəsində daha sıx əməkdaşlıq edərək humanitar dəyərlərin aşılanması istiqamətində uğurlu fəaliyyətini təmin etmişdir. AzQAC-ın 2011-2015- ci illər üçün olan Strateji Planının əsas prioritet istiqamətlərindən biri, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə imkanlarının və maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə güclü



maddi-texniki bazanın yaradılmasından ibarətdir.

Sonda, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nəcib və xeyirxah missiyasının həyata keçirilməsinə dəstək verən hər bir insana, o cümlədən hökumət və qeyri-hökumət strukturlarına, beynəlxalq təşkilatlara, könüllülərə öz təşəkkürümü bildirirəm.

***NOVRUZ ASLANOV***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı***

***«...Ümidvaram ki, Qızıl Aypara Cəmiyyəti bundan sonra da özünün nəcibmissiyasını layiqincə davam etdirəcək, ölkəmizin ictimai həyatında və sosial inkişafında fəal rol oynayacaqdır».***

Azərbaycan Respublikasının prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyevin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin XXII Baş Məclisinə göndərdiyi məktubundan.

*Bakı şəhəri 07 Aprel 2008.*

## MİSSİYA

*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək*

## TƏSVİR

*Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək*

## AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN 2011-2015 Cİ İLLƏR ÜÇÜN STRATEJİ PLANI BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA CƏMİYYƏTLƏRİ FEDERASİYASININ 2020 STRATEGİYASINA UYĞUN OLARAQ HAZIRLANMIŞDIR.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ***2011-2015-ci illər üçün Strateji Planının*** strukturu 3 hissədən ibarətdir

- Biz kimik?
- Biz nə edirik?
- Biz necə işləyirik?

***2011-2015 Strategiyası*** Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sayca dördüncüsüdür. Bu planın unikallığı ondan ibarətdir ki, hazırlıq prosesində təşkilatın bütün regional mərkəzləri vasitəsilə, yerli bölmələri, könüllülər və AzQAC Katibliyinin əməkdaşları fəal iştirak etmişlər. Proses interaktiv şəkildə həyata keçirilmişdir.

Bu plan, AzQAC-ın digər Strateji planlarından fərqli olaraq iki il deyil, beş il müddətinə nəzərdə tutulmuşdur. Qeyd olunduğu kimi, plan Federasiyanın-2020 Strategiyasından qaynaqlanır.

2011-2015 Strategiyasının hazırlanmasına əsas stimul verən amillərdən biri də AzQAC-ın 2008-2010-cu illəri əhatə edən Strateji Planının həyata keçirilməsinin analizi olmuşdur. Belə ki, bu prosesdə də AzQAC Regional mərkəzləri və yerli bölmələri fəal iştirak edərək 2 il ərzində qarşıya qoyulan vəzifələrin nə dərəcədə həyata keçirilməsinin zəif və güclü tərəflərini müəyyən etmişlər.

Beynəlxalq Federasiya və Beynəlxalq Qızıl Xaç Komitəsi AzQAC-ın 2011-2015 Strateji Planının hazırlanmasında yaxından iştirak etmiş, öz tövsiyə və təkliflərini vermişlər. Bu, təkliflər planının hazırlanması zamanı nəzərə alınmışdır.

## MÜQƏDDİMƏ

Strateji Planın Qısa Xülasəsi . . . . . . . . . . . . 3
Strateji məqsəd 1. . . . . . . . . . . . . . . . . . . . . 6
Strateji məqsəd 2 . . . . . . . . . . . . . . . . . . . 10
Strateji məqsəd 3 . . . . . . . . . . . . . . . . . . . 14
Strateji məqsəd 4 . . . . . . . . . . . . . . . . . . . 17
Strateji məqsəd 5 . . . . . . . . . . . . . . . . . . . 20
Tarix . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22
Əlavələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 23

# BİZ KİMİK
# NƏ EDİRİK
# NECƏ İŞLƏYİRİK

# BİZ KİMİK

1920-ci il mart ayının 10-da təsis edilmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının da iştirakçısı olduğu 1949-cu il Cenevrə Sazişləri ruhunda yaradılmışdır. Müvafiq qanunvericiliyə və qaydalara uyğun olaraq Cəmiyyət 1996-cı il noyabr ayının 1-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyət 1949-cu il Cenevrə Sazişlərinə uyğun olaraq, «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 25 noyabr 1994-cü il tarixli, 926 saylı qərarına əsasən, Beynəlxalq Hərəkatın tərkib hissəsi olmaqla ölkə ərazisində bu sahədə fəaliyyət göstərən yeganə ümumxalq, könüllü, qeyri-siyasi, ictimai, humanitar təşkilatdır və humanitar sahədə hökumətə yardımçıdır.

Cəmiyyət özünün humanitar missiyasını respublikanın bütün ərazisində yerli strukturları – regional mərkəzləri, şəhər, rayon bölmələri, ilk təşkilatları vasitəsilə həyata keçirir. Cəmiyyət Hərəkatın başlıca prinsipləri əsasında dövlət orqanları ilə münasibətdə öz muxtariyyətini qoruyub saxlayaraq fəaliyyət göstərir. Cəmiyyətin tərəfdaşları ilə münasibəti Fundamental Prinsiplər çərçivəsində qarşılıqlı hörmət, işgüzar əməkdaşlıq və muvafiq qanunlara əsaslanaraq qurulur.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Konstitusiyasına uyğun olaraq, 1995-ci il noyabr ayının 1-də rəsmən tanındığı Beynəlxalq Qızıl Xaç Komitəsi, 1995-ci il noyabr ayının 25-də üzvü olduğu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri və digər beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq edir.

# BİZ NƏ EDİRİK

Biz - müxtəlif peşəyə, yaşa, milliyyətə, dini mənsubiyyətə, siyasi əqidəyə malik Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvləri insansevərlik və xeyirxahlıq prinsiplərinin xalq arasında təbliğinin önəmliyini rəhbər tutaraq, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatında qəbul edilmiş mövcud sənədlərə, 1949-cu il 12 avqust tarixli Cenevrə Sazişlərinə və digər beynəlxalq aktlara, Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» 1994-cü il, 25 noyabr tarixli, 926 saylı qərarına, 8 May 2001-ci il tarixli «Qızıl Xaç və Qızıl Aypara Emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununa, 8 may 2007-ci il tarixli «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına müvafiq olaraq, respublikada əhalinin az təminatlı təbəqəsinə, müharibə, təbii və texnoqen fəlakətlər zamanı zərər çəkmiş insanlara təmənnasız tibbi-sosial, humanitar və digər zəruri xidmətlərin göstərilməsini, insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərliliyinə, dini əqidə və milli mənsubiyyətindən asılı olmayaraq adamların bərabər hüquqlu olmasına, insansevərliyə və canıyananlığa inamını bir daha təsdiq edərək Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının əsas prinsiplərini, məqsəd və vəzifələrini Azərbaycan Respublikası ərazisində həyata keçirmək üçün səy və cəhdlərimizi birləşdirərək fəaliyyətimizi həyata keçiririk.

# BİZ NECƏ İŞLƏYİRİK

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq humanitar hüququn prinsiplərinə, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının 7 Fundamental prinsipinə, «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» Azərbaycan Respublikası Qanununa, özünün Nizamnaməsi və Strategiyasına, digər müvafiq qanunvericilik aktlarına əsasən fəaliyyət göstərir. Respublika ərazisində görülən işləri tam olaraq hökumət strukturları ilə koordinasiya edir. Bu istiqamətdə əlaqədar hökumət strukturları ilə ikitərəfli vəzifələri özündə təsbit edən memorandumlar imzalanıb.

Yerli bölmələr vasitəsilə əhalinin aztəminatlı təbəqəsinə, müxtəlif fəlakətlərdən zərərçəkmişlərə təmənnasız tibbi-sosial, humanitar yardımlar edir. Müxtəlif sahələr üzrə layihələr həyata keçirir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin strukturu təkmil və mükəmməl qurulmuşdur.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin strukturu:

1. Baş Məclis
2. İdarəetmə Şurası və Rəyasət heyəti.
3. Ali Rəhbərlik
4. Katiblik - rəhbərlik, koordinasiya, ali icra, nəzarət, strateji məsələlər, Baş Məclis, İdarəetmə Şurası və Rəyasət Heyətinin qəbul etdiyi qərarların icrası, emblemin işlədilməsinə nəzarət.
5. Qızıl Aypara Cəmiyyəti İdarəetmə Şurasının qərarı əsasında ərazi vahidi ilə yaradılan regional mərkəzlər, şəhər və rayon bölmələrini birləşdirən ilk təşkilatlar.
6. Qızıl Aypara Cəmiyyətinin vəzifə fəaliyyətini Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirilməsini təmin edən regional mərkəzlər, şəhər, rayon bölmələri.
7. Qızıl Aypara Cəmiyyətinin vəzifə fəaliyyətini Naxçıvan Muxtar Respublikasının bütün ərazisində təmin edən, Naxçıvan Muxtar Respublikası Komitəsi və onun əhatə etdiyi şəhər və rayon bölmələri.

# STRATEJİ MƏQSƏDLƏR

1.İnsan həyatını xilas etmək naminə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər edərək, fəlakət və böhranlara daha hazırlıqlı olmaq və bununla da fəlakətlərdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olunması.

2.Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə İnsanların Sağlam və təhlükəsiz həyat sürməsi naminə əhalinin biliklərinin artırılması.

3.Qızıl Aypara Cəmiyyətində Gənclər və Könüllülərin idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin davamlılığının və səmərəliliyinin artırılması.

4.Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli bölmələrinin, o cümlədən Naxçıvan Muxtar Respublikası Komitəsi, Regional mərkəzlər, şəhər, rayon və sahə bölmələrinin fəaliyyətlərini təkmilləşdirmək, bununla daha effektiv, keyfiyyətli, yerli ehtiyaclara cavab verən xidmətlərin göstərilməsi.

**5.**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə imkanlarını və maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə güclü maddi-texniki bazanın yaradılması.

## GÜCLÜ MADDİ-TEXNİKİ BAZANIN YARADILMASI

91 illik şərəfli tarixi yol keçmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər zaman humanitar sahədə xalqın rifahı naminə yorulmadan çalışmış, humanizm, mərhəmət, xeyirxahlıq kimi hissləri özündə təcəssüm etdirərək daim xalqına və dövlətinə təmənnasız xidmət etmişdir. Bu gün də bu ənənələr layiqincə davam etdirilir. Qızıl Aypara Cəmiyyəti respublikada ən böyük sosial bazaya malik qeyri- hökümət təşkilatlarından biridir. Hazırda sıralarında 300000-ə yaxın üzv və 17000-ə yaxın könüllü vardır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin qəbul olunmuş qanununa müvafiq olaraq əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə, qaçqın və məcburi köçkünlərə, bir sözlə insanların qayğıya həssas təbəqəsinə təmənnasız tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlər göstərməkdədir. Milli Cəmiyyətin fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasından istifadə edərək, öncə maliyyə təminatının gücləndirilməsi məqsədilə müvafiq strategiya müəyyənləşdirilmişdir. Bunun sayəsində xarici donor təşkilatların müxtəlif layihələrə cəlb olunması əsas prioritet kimi seçilmişdir. İnkişaf etmiş digər Milli Cəmiyyətlərin müasir iş təcrübəsini özünün praktik fəaliyyətinə tətbiq edən Az.QAC-nin, həmçinin, həyata keçirilən uğurlu fəaliyyəti zamanı qazandığı nailiyyətləri Beynəlxalq Hərəkatın təmsilçiləri tərəfindən yüksək dəyərləndirilir.




**Dioqram 1. İlk Təşkilatların sayı**

# STRATEJİ MƏQSƏD 1.

**İnsan həyatını xilas etmək naminə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər edərək, fəlakət və böhranlara daha hazırlıqlı olmaq və bununla da fəlakətlərdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olunması.**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsini əsas tutaraq, AzQAC müxtəlif təbii fəlakətlərdən zərərçəkənlərə imkanı daxilində təxirə salınmaz yardım göstərir, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, digər beynəlxalq təşkilatların xətti ilə Cəmiyyətə ünvanlanan və respublikaya daxil olan digər beynəlxalq humanitar yardımların zərər çəkmiş insanlara çatdırılmasını təşkil edir. Təbii fəlakət zamanı Milli Mobil Könüllü Dəstə (NDRT) vasitəsilə Cəmiyyətin mandatına və missiyasına, Beynəlxalq Federasiyanın standartlarına uyğun olaraq tam obyektiv şəkildə qiymətləndirməni həyata keçirir. Bundan əlavə fəlakətin vurduğu ziyanın tez bir zamanda aradan qaldırılması məqsədilə fövqəladə hallara hazırlıq işlərini aparır, bu məqsədlə özünün regional və yerli strukturlarının maddi-texniki bazasını yaradır və onu gücləndirir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi 2000-ci ildə təsis edilmişdir. Son zamanlar dünyada baş verən təbii fəlakətlərin artması, bunun nəticəsində insanlara dəyən mənəvi və maddi ziyanların kütləvi hal alması hər bir dövləti bu aktual problemin həlli istiqamətində fəaliyyətini daha da gücləndirmək zərurəti yaratmışdır. Dövlət tərəfindən həyata keçirilən bu siyasətin əsas aparıcı qüvvəsi olan Fövqəladə Hallar Nazirliyi respublikanın bütün bölgələrini əhatə etmiş və fəlakətlər zamanı əhaliyə əməli köməkliyi göstərməklə bu sahədə irəliləyişlərə nail olmuşdur.




Respublikada fövqəladə hallar nəticəsində baş vermiş böhran və çətinliklər zamanı əhaliyə dəymiş maddi və mənəvi ziyanın aradan qaldırılması ilə əlaqədar xüsusi tədbirləri həyata keçirmək və müvafiq yardımın göstərilməsi ilə bağlı əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək məqsədilə, 2006-cı il noyabrın 11-də Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında anlaşma memorandumu imzalanmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti əhali (icmalar) arasında fövqəladə hallara hazırlıq fəaliyyətlərini 7 Regional Mərkəz (Bakı, Sumqayıt, Sabirabad, Lənkəran, Gəncə, Qarabağ, Mingəçevir və Naxçivan Muxtar Respublikası Komitəsi) vasitəsilə həyata keçirir.

Regional Mərkəzin hər birinə aid olan yerli bölmələrin işçiləri və cəlb edilmiş könüllülər müvafiq treninqlər vasitəsilə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə sahəsində bilik və bacarıqlarını artırırlar.

2008-2010-cu illər ərzində ölkəmizin müxtəlif rayonlarında baş vermiş fövqəladə hallar zamanı 1188 ailəyə (5499 nəfər) ərzaq və qeyri-ərzaq (adyal, döşək, mətbəx ləvazimatları, elektrik qızdırıcısı, səyyar qaz plitəsi, yataq dəstləri, gigiyenik dəstlər, çadır, rezin çəkmə,

ərzaq bağlaması və s.) qismində ilkin humanitar yardım göstərilmişdir.

2009-cu ildə Hacıqabul rayonunun Nəvahi qəsəbəsində güclu yağışlar nəticəsində baş vermiş fəlakətlə əlaqədar, Beynəlxalq Qızlıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Fövqəladə Hallara Cavab vermə Fondunun (DREF) köməkliyi ilə 1287 nəfərdən ibarət 300 ailəyə humanitar yardım göstərilmişdir.

2010-cu ilin may ayından başlayaraq, Kür və Araz çaylarında suyun səviyyəsinin qalxması ilə əlaqədar baş verən təbii fəlakətlərin nəticəsində minlərlə insan əziyyət çəkmişdir. Fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı müvafiq nazirlik və qeyri-hökumət strukturlarının gücü səfərbər edilmişdir. Fəlakətin miqyası böyük olduğundan AzQAC dərhal NDRT və mobil könüllü dəstə vasitəsilə qiymətləndirmə fəaliyyətini həyata keçirmişdir. AzQAC Prezidenti Novruz Aslanov fəlakət zonalarında olmuş və Cəmiyyətin humanitar siyasətinə uyğun olaraq zərərcəkmişlərlə görüşmüşdür. İlkin qiymətləndirmə nəticəsində Zərdab rayonunda 210 nəfərdən ibarət 70 ailəyə və Göygöl rayonu, Hacıkənd qəsəbəsində 240 nəfərdən ibarət 53 ailəyə humanitar yardım edilmişdir. Qiymətləndirmənin nəticələri AzQAC-ın bütün tərəfdaşlarına, o cümlədən, BQX/QAF-a göndərilmişdir. BQX/QAF-nın köməyi sayəsində Federasiyasının (DREF) proqramının vasitəsilə 2010-cu il 18 may – 24 sentyabr tarixində 2195 nəfərdən ibarət 400 ailəyə Zərdab, Hacıqabul və İmişli rayonlarında humanitar yardım paylanılmışdır.

2006-cı il Noyabrın 11-də Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında qarşılıqlı razılaşma memorandumuna əsasən edilən yardımın təkrarlanmaması üçün Qızıl Aypara Cəmiyyəti Fövqaladə Hallar Nazirliyi ilə əlaqəsini daha da möhkəmləndirərək öz fəaliyyəti haqda məlumat verir.

2008-ci ildən başlayaraq AzQAC və ANAMA arasında "Mina hadisələri və qurbanları haqda məlumatın toplanmasna dair" imzalanmış Anlaşma memorandumu hər ilin sonu yenidən təzələnərək növbəti il üçün imzalanır. Bu fəaliyyətlər yüksək səviyyədə əməkdaşlıq cərçivəsində davam etdirilir.

## VƏZİFƏLƏR

**Vəzifə 1. Fəlakətlərə qədər və fəlakətdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olmaq.**

-AzQAC-ın Fövqəladə Hallar Nazirliyi və digər tərəfdaşlarla əməkdaşlığının və koordinasiyanın davam etdirilməsi;

-Milli fəlakətlərin idarə edilməsi sistemində AzQAC-ın müəyyən edilmiş rolunun daha geniş fəaliyyətlərlə davam etdirilməsi;

-Beynəlxalq səviyyədə regionda baş vermiş fəlakətlər zamanı dəstək olaraq maddi və psixoloji reabilitasiya layihələrinin planlaşdırılması və həyata keçirilməsi;



-AzQAC-ın fəlakətin idarə edilməsi üçün gözlənilməz hallara cavabvermə planının təkmilləşdirilməsi;

-2011-2012-ci illər ərzində Qusar rayonunda yeni salınan (2012-ci ildə istifadəyə verilməsi planlaşdırılan) dağ-turizm istirahət mərkəzində turistlərin təhlükəsizliyinin təmin olunması üzrə sistemin qurulmasına dair müvafiq hökumət və qeyri-hökumət qurumları ilə danışıqların aparılması;

-2012-ci ildə AzQAC tərəfindən Qusar rayon bölməsi nəzdində mükəmməl ilk yardım təlimi keçmiş 4 nəfərdən ibarət dəstənin növbəli iş rejimi ilə turistlərin təhlükəsizliyinin təmin olunması üzrə fəaliyyətə başlaması;

**Vəzifə 2. Fəlakət qurbanlarına olan humanitar xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq**

-Cəbhə bölgəsində silahlara qarşı mübarizə fəaliyyətlərinin sayının artırılması və yoxsulluğun aradan qaldırılması istiqamətində infrastruktur (su təchizatı, əkinçiliyə və maldarlığa dəstək) layihələrinin genişləndirilməsi;

-Fəlakətlərə hazırlıq və cavabvermə fəaliyyətlərini gücləndirmək məqsədilə anbar sisteminin təkmilləşdirilməsi;

-Turizm sahəsində insanların təhlükəsizliyini təmin edən sistemin qurulması.

-Fəlakətlərə meyilli ərazilərdə öncədən, həmçinin, fəlakət zamanı yerlərdə risklərin azaldılması tədbirlərinin effektivləşdirilməsi;

**Vəzifə 3. Fəlakət nəticəsində itkin düşmüş şəxslərin ailə üzvlərinin axtarışı və ailə əlaqələrinin bərpasına nail olmaq. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı və ümumiyyətlə miqrasiya problemlərindən maddi və mənəvi əziyyət çəkən insanlara dəstək üçün fəaliyyətlərin həyata keçirilməsi.**

- Fövqəladə Hallar zamanı Axtarış strategiyasına uyğun olaraq, Axtarış xidməti işinin davam etdirilməsi;

-Yerli bölmələrdə mümkün ola biləcək kadr dəyişikliklərini nəzərə alaraq, axtarış sahəsində təlimlərin keçirilməsi;

-Axtarış sahəsində hökumət və qeyri- hökumət təşkilatları ilə əməkdaşlığın davam etdirilməsi;

-Axtarış sahəsində işçi heyətin maarifləndirilməsinin davam etdirilməsi;

-Fəlakətlər və müharibələr nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş və miqrasiya problemləri ilə üzləşən insanlara humanitar dəstək məqsədilə müxtəlif səpkidə fəaliyyətlərin planlaşdırılmasını və həyata keçirilməsini təşkil etmək;

-miqrasiya sahəsində hökumət və qeyri-hökumət təşkilatları ilə ümumi koordinasiya yolu ilə əməkdaşlığı davam etdirmək;

-Müvafiq hökumət və beynəlxalq humanitar təşkilatlarla öz fəaliyyətini əlaqələndirərək Miqrasiya proqramının beynəlxalq səviyyədə inkişafının təmin edilməsi;

-2011-2015-ci illər ərzində məcburi köçkünlərin repatriasiya prosesində iştirak etməklə onlara effektiv kömәkliyin göstərilməsi və miqrasiya proqramı daxilində əhalini məlumatlandırmaq kampaniyasının həyata keçrilməsi;

-2014-2015-ci illərdə milli cəmiyyətin miqrasiya sahəsindəki fəaliyyətinin genişləndirilməsi, qaçqın və məcburi köçkünlər ilə fəaliyyət göstərməsi üçün hüquqi bazanın (miqrasiya siyasətinin) yaradılması;

-2011-2012-ci illər ərzində qaçqın və məcburi köçkünlərin kompakt şəkildə məskunlaşdığı yerlərdə araşdırma və analizlər apararaq yerli tələbata uyğun layihə və proqramların hazırlanması, həmin layihələrin həyata keçrilməsi üçün beynəlxalq humanitar təşkilatlarla əlaqələrin gücləndirilməsi;

-Maddi cəhətdən çətinlik çəkən və öz doğmalarından müəyyən səbəblərə görə ayrı düşmüş miqrantların doğmaları ilə görüşdürülməsi və bu xərclərin AzQAC-ın hesabına təmin edilməsi üçün hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;




## FƏALİYYƏT GÖSTƏRİCİLƏRİ

-2012-2015-ci illər ərzində risk qarşısında qalan əhali fövqəladə hallara və fəlakətlərə daha hazırlıqlıdır. AzQAC ölkə üzrə riskin minimum azaldılması sahəsində əhalinin fəlakətlərə daha hazırlıqlı və effektiv cavabverməni təmin edəcəkdir.

-2012-ci ildə AzQAC-ın milli səviyyədə öz öhdəlikləri çərçivəsində fəlakətlərin idarə edilməsinə dair həyata keçirdiyi hər hansı bir fəaliyyət barədə tərəfdaşların məlumatlandırılması işi sistemli şəkildə qurulacaq;

-2013-cü ilədək AzQAC Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin nəzdində beynəlxalq əməliyyatlar üçün 10 nəfərdən ibarət xüsusi hazırlıqlı mobil dəstə hazırlanacaqdır;

-2013-2015-ci illər ərzində AzQAC-ın beynəlxalq əməliyyatlar üçün hazırlanmış xüsusi mobil dəstəsinin minimum 1 qonşu ölkədə baş vermiş fəlakət zamanı sınaq olaraq yardım ediləcəkdir;

-2012-ci ilədək AzQAC-ın Fəlakətlərin idarə olunması üçün gözlənilməz hallara cavabvermə

üzrə mövcud olan planı yeni dövrün tələblərinə uyğun olaraq təkmilləşdiriləcəkdir;

-2013-cü ilədək AzQAC-ın 7 Regional Mərkəzində fəaliyyət göstərən mobil könüllü dəstələri fövqəladə əməliyyatlar üçün nəzərdə tutulan müasir növ xüsusi təyinatlı formalar və hər növ avadanlıqlarla təchiz olunacaq;

-2011-2015-ci illər ərzində respublika ərazisində, xüsusilə də cəbhə bölgəsində insanların müxtəlif silahlarla (minalar, müharibənin partlayıcı qalıqları və s.) qarşılaşma risklərinin hadisədən öncə azaldılması üzrə fəaliyyətlər, layihələrin davam etdirilməsi (Təhlükəsiz Oyun Meydançaları və s.);

-2011-2015-ci illər ərzində respublika ərazisində, xüsusilə də cəbhə bölgəsində silahların (minalar, müharibənin partlayıcı qalıqları və s.) vurduğu ziyan nəticəsində ailə başçısını itirmiş ailələrə gündəlik yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində sosial dəstək layihə və proqramları müxtəlif donorlarla, o cümlədən, Beynəlxalq Qızıl Xaç Komitəsi ilə tərəfdaşlıq edərək davam etdiriləcəkdir;

-2011-2015-ci illər ərzində AzQAC və ANAMA (Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik) arasında hər il yenidən imzalanaraq qüvvəyə minən əməkdaşlıq üzrə memorandumun şərtlərinə uyğun olaraq, respublika ərazisində müxtəlif silahların (minalar, müharibənin partlayıcı qalıqları və s.) vurduğu ziyan nəticəsində baş vermiş hadisə üzrə İMSMA (Information Management System of Mine Action) məlumatların toplanması işi davam etdiriləcəkdir;

-2011-2012-ci illər ərzində cəbhə bölgəsində yerləşən icmalarda (kəndlərdə) insanların yaşayış tərzinin iqtisadi tərəfdən qismən də olsa yaxşı tərəfə yönəlməsi istiqamətində BQXK ilə tərəfdaşlıq edərək "İqtisadi Təhlükəsizlik" adı ilə infrastruktur fəaliyyətləri, layihələrinin (su təchizatının bərpası, yenilənməsi, kənd təsərrüfatı üzrə yeni təşəbbüslərin insanlara öyrədilməsi və dəstək verilməsi və s.) həyata keçirilməsi;

-2015-ci ildə AzQAC-ın bütün anbarlarında fövqəladə hallara cavabvermə məqsədilə 700 ailəlik (700x5=3500 nəfər) yardım ehtiyatları olacaq;

-2015-ci ildə AzQAC Baş Qərargahı, Regional Mərkəzləri, anbarlar və yerli bölmələrində mövcud olan telekommunikasiya sistemi müasir avadanlıqlarla əvəz olunacaq;

-2012-2015-ci illərdə fəlakət risklərinin azaldılmasına dair tədbirlərin keçirilməsi;

-2015-ci ilədək fəlakətə meyilli ərazilərdə fəlakətə hazırlıq fəaliyyətlərini həyata keçirən hazırlanmış icma qruplarında və digər icmalarda risklərin azaldılması və psixoloji reabilitasiya üzrə seminar və təlimlərin sayı 70-ə çatdırılacaq;

-2011-ci ildən başlayaraq axtarış sahəsində hökumət və qeyri-hökumət təşkilatları ilə rüblük kordinasiya görüşləri olacaq;

## FƏALİYYƏTƏ TƏSİR EDƏN AMİLLƏR:

-Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlıq;

-Tərəfdaşlarla uzun müddətli razılığın əldə edilməməsi;

-hərbi münaqişə nəticəsində yarana biləcək qeyri-stabil vəziyyət.



# STRATEJİ MƏQSƏD 2.

**Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat sürməsi naminə əhalinin biliklərini artırmaq.**

Tibbi biliklərin yüksək səviyyəsi sağlam cəmiyyətin yaradılması işində vacib amildir. Ümumdünya Səhiyyə Təşkilatı tibbi biliklərin səviyyəsi, insanların sağlamlığının qorunması ilə bağlı məlumatların müəyyən edilməsi, həmçinin, səhiyyənin əsas məsələlərinin həllində düzgün istiqamətlənmiş zəruri tədbirlərin aparılmasına imkan verilməsi üçün daim çıxış edir, profilaktik proqramların rolunun artırılmasını tövsiyə edir. Dünyada baş verən bədbəxt hadisələr, fəlakətlər nəticəsində insan sağlamlığına mənfi təsir göstərən amillər, əhali arasında yoluxucu xəstəliklər, psixi pozğunluğun yayılması halları müşahidə olunur. Eyni zamanda insanların təhlükəli həyat sürməsi üzündən onların sağlamlığının pozulmasının səbəbi olan HİV/AİDS, vərəm, narkotiklərdən istifadə, siqaretçəkmə kimi amillərin yayılması hələ də qalmaqdadır. Bunu nəzərə alan, dövlətinə yardımçı rolunu oynayan, AzQAC təhlükəsiz həyat naminə HİV/AİDS, vərəm, narkotiklərdən istifadə, siqaretçəkmə kimi amillərlə mübarizəyə yönəldilmiş fəaliyyətlərini genişləndirir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində əhali arasında təhlükəsiz həyat sürmə naminə geniş səhiyyə maarifi işinin aparılması mühüm yer tutur. Belə ki, respublikanın bölgələrində icmalarla əməkdaşlıq şəraitində Milli Cəmiyyət tərəfindən təlimatlandırılmış könüllü sağlamlıq işçiləri və işçi heyəti vasitəsilə əhalinin tibbi biliklərinin artırılması, eyni zamanda səhiyyənin inkişafı üçün əsas şərtlərdən biri olan mühüm səhiyyə maarifi işi həyata keçirilir.

2008-2010-cu illər ərzində ölkənin bütün regionlarının Milli Cəmiyyət tərəfindən aparılan «İcmaya əsaslanan sağlamlıq» proqramı çərçivəsində **149108** nəfər maarifləndirilmişdir. Ətraf mühit, ümumi və şəxsi gigiyena, düzgün qidalanma, uşaqlara peyvənd olunmasının vacibliyi, infeksion xəstəliklər, ailə planlaşdırılması, HİV/AİDS, süd vəzisinin xərçəngi və onun profilaktikası kimi mövzularda dair maarifləndirmə işləri aparılmışdır. **76560** nəfər isə "Pandemiyaya qarşı humanitar hazırlıq" layihəsi çərçivəsində maarifləndirilmişdir. **2 nəfər** tibb bacısı "Florens Naytingale" Medalı ilə təltif olunmuşdur.

- AzQAC-ın Quba, Zaqatala, Ucar, Ağdam, Füzuli rayonlarında yaradılan İlk Yardım mərkəzlərində 5 nəfərdən ibarət olan təlimatlandırılmış ilk yardım dəstəsi tərəfindən **3241** nəfər icma üzvü ilk yardım vərdişlərinə yiyələnmişdir. İlk Yardım üzrə 3 kampaniya, pandemiyaya hazırlıq mövzusunda 5 simulyasiya təşkil olunmuşdur. İsrail Magen David Adom Cəmiyyətinin dəstəyi ilə İlk Yardım üzrə 2 təlim təşkil olunmuşdur.

Milli Cəmiyyət tərəfindən aparılan, «Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafı» adlı proqram çərçivəsində 2008-ci ildə Bakıda yaradılan 5 nəfərdən ibarət **Klub 25 -** in könüllülərinin fəaliyyəti sayəsində **7172** nəfər maarifləndirilmişdir.

2010-cu ildə "Pandemiyaya qarşı humanitar hazırlıq" layihəsi çərçivəsində **112** nəfər icma könüllü sağlamlıq işçisinə qrip pandemiyasında evdə





qulluq və psixo-sosial iş üzrə təlim keçirilmişdir. 2010-cu ildə başlayan «Dərmanlarla davamlı vərəm xəstələrinə dəstək" adlı pilot layihəsinə 4 nəfər tibb bacısı cəlb olunmuş, 20 nəfər Vərəmli xəstənin evdə müalicəsinə nəzarət olunaraq, tibbi, psixo-sosial xidmət göstərilmişdir. Bakıda 11 nəfər tibb bacısı 300 nəfər xəstə tənha qocaya qayğı və tibbi-sosial xidmət göstərmişdir.

Əhali arasında sağlamlıqla bağlı müxtəlif səpkili əyani vəsait və çap məhsulları yayılmışdır.

2011-2015-ci illər üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti təhlükəsiz həyat sürülməsi naminə biliklərini artırmaq məqsədilə respublikada sağlam həyat tərzi (HİV/AİDS, narkotiklər, siqaretçəkmə), vərəm, psixi pozğunluqlar, yoluxucu, onkoloji xəstəliklər, təhlükəsiz yol, pandemiya, könüllü təmənnasız qan donorluğuna aid təbliğatını aparan tibb bacıları və könüllü sağlamlıq işçilərinin hazırlanması və təkmilləşdirilməsi, eləcə də əhali arasında səhiyyə-maarifi işinin təşkili sahəsində fəaliyyətləri genişləndirməklə, profilaktik proqramların rolunu artırmağı nəzərdə tutub.

# VƏZİFƏLƏR

**Vəzifə 1. İcmaya əsaslanan səhiyyə maarifi işinin təşkili.**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Respublikada ictimai səhiyyə sahəsində fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı davam etdirərək, yerli bölmə və regional mərkəzlədə fəaliyyət göstərən könüllü sağlamlıq işçiləri, tibb bacıları vasitəsilə əhalinin təhlükəsiz həyat sürməsinə, sağlamlığının yaxşılaşdırmasına və xəstəliklərin azadılmasına icmalarda xəstəliklər barədə geniş səhiyyə-maarifi işini təşkil etməklə əhalinin sağlamlığı (xəstəliklərin qarşısının alınması) barəsində biliklərini artırmaq.

- AzQAC-ın RB və RM-də könüllü sağlamlıq işçilərini cəlb etmək;
- AzQAC-ın sağlamlıq işçilərinə ictimai səhiyyə ilə bağlı təlim-məşğələlər təşkil etmək;
- Əhalinin sağlamlıqla bağlı problemlərinə aid sorğular aparmaq;
- AzQAC-ın RB və RM-də könüllü sağlamlıq işçiləri tərəfindən əhali arasında səhiyyə ilə bağlı tədbirlər təşkil etmək;

**Vəzifə 2. Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olmaq.**

AzQAC tərəfindən əhali arasında könüllü təmənnasız qan donorluğu sahəsində təşkil olunan tədbirlərin (sorğuların aparılması, təlim-məşğələlərin və təbliğat kampaniyaları) təşkili, Klub-25 üzvləri vasitəsilə respublikada könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olacaq.

- AzQAC-ın RB və RM-də könüllülərdən ibarət qruplar yaratmaq;
- AzQAC-ın RB və RM-də könüllü təmənnasız qan donorlarından ibarət Klub-25 fəaliyyətini genişləndirmək;



- Könüllü təmənnasız qan donorluğuna aid təlim-tədbirləri təşkil etmək;
- Əhali arasında geniş təbliğat kampaniyaların təşkil etmək;
- Kütləvi qanvermə aksiyalarını təşkil etmək;

**Vəzifə 3. İlk Yardım vərdişlərinə yiyələnmək barədə fəaliyyətlərin genişləndirilməsi.**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli bölmə və regional mərkəzlərində fəaliyyət göstərən, könüllərdən ibarət yeni yaradılmış ilk yardım dəstələri tərəfindən əhali arasında ilk yardım vərdişləri aşılanacaq. Regional mərkəzlər, yerli bölmələrin işçi heyəti və ilk yardım dəstələrinin üzvləri fövqəladə hallara hazırlıq və fövqalədə hallar zamanı ilk yardımın aparılması və səhiyyə sisteminin təşkili barəsində bilikləri əldə edəcək.

- AzQAC-ın RM-də İcmaya əsaslanan İlk Yardım üzrə təlim mərkəzlərinin fəaliyyətini genişləndirmək;
- AzQAC-ın yerli bölmələri və RM-də könüllülərdən ibarət ilk yardım dəstələrini təkmilləşdirmək;
- İcmaya əsaslanan ilk yardım, fövqəladə hallara hazırlıq və fövqəladə hallar zamanı ictimai səhiyyə sisteminin əsaslarının təşkili, ilk yardım, zərərçəkənə psixoloji yardımın aparılması barədə təlim-məşğələlər keçirmək;
- AzQAC-ın RB və RM könüllülərdən ibarət ilk yardım dəstələri arasında yarış-simuluasiyalarını təşkil etmək;
- AzQAC-ın RM-də İcmaya əsaslanan İlk Yardım üzrə təlim mərkəzlərinin fəaliyyətini genişləndirmək;
- AzQAC-ın yerli bölmələri və RM-də könüllülərdən ibarət ilk yardım dəstələrini təkmilləşdirmək;
- İcmaya əsaslanan ilk yardım, fövqəladə hallara hazırlıq və fövqəladə hallar zamanı ictimai səhiyyə sisteminin əsaslarının təşkili, ilk yardım, zərərçəkənə psixoloji yardımın aparılması barədə təlim-məşğələlər keçirmək.

**Vəzifə 4. Səhiyyə xidmətləri vasitəsilə əhalinin sağlamlığını yaxşılaşdırmaq, xəstəliklərin sayı və insanların zavallılığını azaltmaq.**

AzQAC-ın RB və RM-də tibb bacıları tərəfindən aparılan tənha kimsəsiz xəstələrə və evdə xüsusi qayğıya ehtiyacı olan insanlara (vərəm, AİDS, onkoloji xəstələr) qulluq və müəlicəsinə (palliativ qayğı)) nəzarət kimi tibbi-patronaj, sosial fəalliyəti nəticəsində həmin insanlara diqqət və qayğı artırılacaq, onlarının zavallılığı azaldılacaq.

- AzQAC-ın RB və RM-də patronaj tibb bacılarının şəbəkəsini yaratmaq;
- AzQAC-ın RB və RM-də patronaj tibb bacılarının təkmilləşdirilməsi (evdə qulluq, sosial iş, psixoloji dəstək, palliativ qayğı) ) dair təlimlər təşkil etmək;
- AzQAC tibb bacıları və tibb qardaşları kurslarının yenidən təşkili;

- İctimai səhiyyə ilə bağlı tibb bacıları və sağlamlıq işçilərini cəlb edərək tədbirlər təşkil etmək.

**Vəzifə 5. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fövqəladə hallara hazırlıq və fövqəladə hallar zamanı (Pandemiya) səhiyyə sisteminin təşkili.**

-Münaqişə zonalarından olan icmaların pandemiyaya hazır olması məqsədilə sağlamlıq qruplarının yaradılması, onların təlimatlandırılması;

-Əhalinin Pandemiyaya hazır olması məqsədilə icmalarda fəaliyyətlərin aparılması, icmaların pandemiyaya hazır olması planının hazırlanması məqsədilə 14 rayonda hökumət təşkilatlarının nümayəndələri ilə birgə işçi qrupların yaradılması;

-Pandemiyaya aid 3 dəyirmi masa-stimulyasiya, 5 simulyasiya tədbirlərinin təşkili.

## FƏALİYYƏT GÖSTƏRİCİLƏRİ

Sağlamlıq qrupunun fəaliyyəti sayəsində 2011-ci ildə - 20000; 2012- ci ildə -25000; 2013-cü ildə 30000; 2014 –cü ildə 35000; 2015-ci ildə 40000 insan təhlükəsiz həyat sürülməsi naminə HİV və AİDS, narkomaniya, siqaretçəkmə, vərəm, psixi sağlamlıq, yoluxucu və onkoloji xəstəliklər barədə biliklərini artıracaq;

- Respublikada könüllü təmənnasız qan donorlarının sayını artırmaq məqsədilə Bakının təhsil ocaqlarında Klub-25 yaradılacaq;
- Respublikada könüllü təmənnasız qan donorlarının sayını artırmaq məqsədilə 2015-ci il üçün 20000 nəfər insan qan donorluğu haqqında maariflənəcək;
- 2011-ci ildə - 1000; 2012- ci ildə -1500; 2013-cü ildə -2000; 2014-2500; 2015 - 3000 nəfər könüllü təmənnasız qan donoru olacaq;
- 2011-2015-ci illərdə, münaqişə zonalarında AzQAC yerli bölmələrində (Füzuli, Ağcabədi, Ağdam,Tər-Tər, Bərdə, Goranboy, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Şəmkir, Daşkəsən, Göygöl) 13 İlk Yardım təlimatçısı və 15 İlk Yardım dəstəsi yaradılacaq;
- İlk Yardım dəstələrinin fəaliyyəti sahəsində 25 000 nəfər İlk Yardım vərdişlərinə yiyələnəcək;
- 2011-2015-ci illərdə 100 nəfər vərəmli xəstənin davamlı müalicəsinə nəzarət olunacaq;
- 2011-2015-ci il üçün 50 nəfər tibb bacısı tibbi-patronaj kurs (evdə qulluq, xəstə ilə davranış, sosial iş, psixoloji dəstək, palliativ qayğı) üzrə təlim keçəcək;

## FƏALİYYƏTƏ TƏSİR EDƏN AMİLLƏR:

- Ölkədə müharibə (və yaxud konfliktin genişlənməsi, riskin artırılması);
- Hökumət və qeyri-hökumət strukturları ilə əməkdaşlıqda bəzi çətinkiklər.



# STRATEJİ MƏQSƏD 3.

**Qızıl Aypara Cəmiyyətində Gənclər və Könüllülərin idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin səmərəliliyinin artırılması.**

Milli Cəmiyyətlər üçün könüllülüyün inkişafı uzun müddətli sərmayə və öhdəlik deməkdir. Bu baxımdan könnüllülərin idarə edilməsi Milli Cəmiyyət üçün vacibdir. Bu proses Milli Cəmiyyətin mövcud mühitdə olan real vəziyyətdə öz könüllülərini necə idarəetməsinin analizi ilə başlayır.

Gənclər və könüllülər inam və qarışıqlı mübadiləyə yardım göstərir. O, insanları məsuliyyətli vətandaş olmağa həvəsləndirir, onları demokratik cəlbolunmanı öyrənə biləcəkləri yerlə təmin edir.

Milli Cəmiyyət daxilində könüllülərlə bağlı fəaliyyətlər fundamental prinsiplərə inanan şəxslər tərəfindən həyata keçirilir və mənəvi, maddi qazanc güdməyərək könüllüləri həvəsləndirilər. Bizim gənc könüllülər sosial cəhətdən zəif təmin edilmiş insanları qoruyur, daha insanpərvər və sülhsevər ölkə üçün çalışırlar.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti gənclər strukturlarının təşkilatı inkişafında tərəqiyyə nail olmuşdur. Qzıl Aypara rəhbərliyinin dəstəyi, gənc könüllülərin fəaliyyətlərdə fəal iştirakı, 2008-2010-ci illərdə Beynəlxalq Federasiyanın, Beynəlxalq Qızıl Xaç Komitəsinin, yerli və xarici donorların dəstəyi gənclər və könüllülərin fəaliyyətinə təkan vermişdir.

Fəaliyyət göstərən, Mərkəzi və Regional Gənclər şuraları yerli bölmələrdən olan gənc könüllülərə öz problemlərini müzakirə və fəaliyyətlərini koordinasiya etmək imkanı yaratmışdır. Gənc könüllülər üçün 2008-2010-cu illər ərzində idarəetmə, cəlb olunma və elektron qeydiyyat sistemi vasitəsilə təlimatlar, treninq modulları, lider və sosial treninqlər keçirilmişdir. Həmin dövr ərzində gənc könüllülərlə bir sıra fəaliyyət həyata keçirilmişdir:

-şuraların görüşləri;

-könüllülərin cəlb olunma kampaniyaları;

-Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi və fəaliyyətləri haqqında sessiyalar;

-kimsəsiz və xəstə uşaqlar üçün beynəlxalq və ölkə daxili yay istirahət düşərgələri;

-gənclər üçün intellektual yönümlü düşərgələr;

-müxtəlif əyani vəsaitlər və digər atributlar hazırlanmışdır.

25258 nəfər gənc və yeniyetmə müxtəlif kampaniyalarda, treninqlərdə, 4870 nəfər sosial vəziyyətləri zəif olan uşaqlar isə yay istirahət düşərgəsində və bayramlarla əlaqədar keçirilən müxtəlif əyləncəli proqramlarda iştirak etmişlər. 6 Pegional Mərkəzdə, 11 Rayon Bölməsində Gənclər klubları yaradılmışdır. Eyni zamanda 2011-2015-ci illərdə yerli bölmələrdə gənclər klublarının yaradılması nəzərdə tutulub. Gənclər və könüllülər Azərbaycan Qızıl





Aypara Cəmiyyətinin bütün fəaliyyətlərinə fəal olaraq cəlb olunub. Lakin elə proqramlar var ki, onlar sırf könüllülərin və gənclərin iştirakı ilə həyata keçirilir. Məsələn: Könüllülərin həvəsləndirilməsi üçün müxtəlif treninqlər, kampaniyalar, qan donorluğu, ilk yardım, narkomaniyaya qarşı mübarizə, HİV\AİDS haqqında gənclər arasında məlumatların yayımı, uşaq evlərində sosial fəaliyyətlər, fəlakətlərə hazırlıq və cavabvermə, xilasedici cevik mobil qrupların yaradılması, fiziki və əqli cəhətdən qüsurlu uşaqlarla iş, yay düşərgələri, kimsəsiz uşaqlara yardım, imkansız və əlil uşaqlar üçün reabilitasiya mərkəzi, məktəbə qayıdış, yollarda təhlükəsizlik, sağlam qidalanma proqramı, idman tədbirləri və s. kimi gənclər və könüllülər üçün yeni proqramların inkişafı Qızıl Aypara Cəmiyyətinin fəaliyyətlərinin səmərəliyini artırmaq imkanı verəcəkdir.

## VƏZİFƏLƏR

**Vəzifə 1. AzQAC-ın yüksək performans və davranış qaydalarına malik könüllülərinin hazırlanması**

-Könüllülərin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri vasitəsilə zavallı qruplara effektiv xidmət göstərməsini təmin etmək;

-Könüllülərin effektiv idarəolunması sistemini təkmilləşdirmək;

-Fövqəladə hallar və ya onun nəticələrinin aradan qaldırılması zamanı könüllülərin fəal cəlb edilməsini təmin etmək;

-Könüllüləri cəlb olunduqları fəaliyyətlərin həyata keçirilməsi üçün müvafiq kampaniyalarla, seminarlarla, treninqlərlə yeni modullarla təmin etmək;

-2009-cu il Azərbaycan Respublikasının "Könüllü fəaliyyət haqqında" qanununa əsasən insanpərvərliyin və dözümlülüyün təbliğini təmin etmək;

-Regional mərkəzlər və yerli bölmələr səviyyəsində Gənc Könüllülər Şuralarının və Gənclər klublarının işini gücləndirmək;

-Zavallı insanların həyatının yaxşılaşdırılmasına, icmaların və vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş pozitiv və vacib töhfə olan könüllüyün yayımını təşkil etmək;

-Bütün könüllüləri əsasən onların şəxsi töhfələri, entuziazm, gətirə bildikləri təcrübə və biliklərinə görə qiymətləndirmək.

**Vəzifə 2. Gənclər Komitəsinin inkişafını təmin etmək**.

-Gənclər komitəsinin strukturunu təkmilləşdirmək və əsasnaməyə müvafiq əlavə və dəyişikliklərin edilməsi

-Gənclər Komitəsinin fəaliyyətini gücləndirmək məqsədilə yerli və xarici donorların məlumat bankının hazırlanması

-Gəcnlər Komitəsinin maddi-texniki bazasını möhkəmlətmək məqsədilə AzQAC-ın Fandreyzinq şöbəsi ilə sıx əməkdaşlığın edilməsi;

-2011-ci il Beynəlxalq Federasiya tərəfindən könüllülər və könüllülük ili elan olunması ilə əlaqədar «Daxilən Könüllü ol!» şüarı ilə müxtəlif kampaniya və tədbirləri həyata keçirmək;

-Könüllülük işi sahəsində AzQAC-ın Gənclər və Könüllülər Şöbəsi ilə inteqrasiyanı təmin etmək, könüllülük işi və biznes icması: tərəfdaşlıq, cəmiyyətin yenilənməsində və s. sahələrdə müzakirələrin aparılması.




**Vəzifə 3. Küçə və yollarda təhlükəsiz davranış vərdişlərini təbliğ etmək.**

Azərbaycan Respublikasının Dövlət Yol Polisi İdarəsi ilə əməkdaşlıq çərçivəsində uşaqlar, yeniyetmələr və gənclər arasında yollarda və küçələrdə təhlükəsizlik davranış vərdişlərinin təbliğinə aid aşağıdakı fəaliyyət sahələrinin həyata keçirilməsinə yardımçı olmaq:

sorğuların, toplantıların, yarışların, ekskursiya, yürüş, viktorinaların təşkili;

-ilk yardım təlimlərinin keçirilməsi;

-könüllülər və mədəni kütləvi tədbirlər üçün müvafiq uniforma və avadanlıqların alınması;

-uşaq, yeniyetmə və gənclərdə yol mədəniyyətinin formalaşdırılması;

-küçə və yollarda təhlükəsiz davranış qaydalarının öyrənilməsi, YHQ-nın təbliği işini aparılması qaydalarına yiyələnmə və bu işinin uşaqlar arasında təşkili;

-Gənclərdə ətrafdakılara qarşı humanist münasibət, yoldaşlıq hissləri və digər mənəvi keyfiyyətlərin formalaşdırılması işində iştirak etmək;

-Yollarda təhlükəsizlik, yol hərəkətı qaydalarının öyrənilməsi, uşaqların, yeniyetmələrin, gənclərin yol-nəqliyyat zədələri profilaktikası və xəbərdarlıq edilməsi üsullarını və yol-nəqliyyat hadisəsi zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi qaydalarına yiyələnmə.

## FƏALİYYƏT GÖSTƏRİCİLƏRİ

- Gənclər Komitəsinin 2015-ci ilin sonu üçün strukturu və maddi-texniki bazası möhkəmləndiriləcəkdir;

- 2011-2015-ci il üçün Gənclər Komitəsinin nümayəndələri və bir qism könüllüsü Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün Ali Rəhbər orqanlarında təmsil olunacaq;

- 2015-ci ilin sonu üçün 7 Regional Mərkəzdə və RB-də könüllülərin cəlb olunması, elektron qeydiyyat sistemi təkmilləşdiriləcək;

- 2015-ci il üçün Qızıl Ayparanın fəaliyyətlərinə cəlb olunmuş könüllülərin sayı 25.000 nəfər artaraq 25.700 təşkil edəcəkdir;

- 2015-ci ilin sonunda 19480 könüllü müvafiq treninqlər alacaqdır;

- 2011-2015-ci ilin sonuna kimi 30 RB-də Gənclər klubları yaradılacaqdır;

- 2011-2015-ci ilin sonuna kimi 10000 uşaq, yeniyetmə və gənc yollarda təhlükəsiz davranış vərdişlərinin təbliği vasitəsilə maariflənəcək;

- 2011-cı il üçün gənclərin cəlb olunacağı 7 layihə işə düşəcəkdir;

- yol-nəqliyyat hadisələrində yeniyetmələrin, gənclərin zədə almaları azalacaq.




## FƏALİYYƏTƏ TƏSİR EDƏN AMİLLƏR:

- AzQAC Regional Mərkəzlər və yerli bölmələr səviyyəsində gənclərin və könüllülərin fəaliyyətinə kifayət qədər dəstəyin verilməməsi;

- AzQAC şöbələri arasında koordinasiyanın olmaması;

- Gənclər proqramlarına maliyyə dəstəyinin olmaması;

- Təcrübə mübadilələrinin həyata keçirilməməsi;

- Könüllülərin davamlığının olmaması.



# STRATEJİ MƏQSƏD 4.

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli bölmələrinin, o cümlədən Naxçıvan Muxtar Respublikası Komitəsi, Regional mərkəzlər, şəhər, rayon və sahə bölmələrinin (ilk təşkilatların) fəaliyyətlərini təkmilləşdirmək və bununla daha effektiv, keyfiyyətli, yerli ehtiyaclara cavab verən xidmətlərin göstərilməsi.**

Qızıl Aypara Cəmiyyəti Naxçıvan Muxtar Respublikası Komitəsi, 83 Rayon və şəhər bölməsi, 9 sahə bölməsi, 7 Regional mərkəz və Bakıda yerləşən Katiblikdən ibarətdir. Milli Cəmiyyətin əvvəllər məhdud fəaliyyət və idarəçilik imkanları nəzərə alaraq 1993-cü ildən başlayaraq Beynəlxalq Federasiya tərəfindən Azərbaycanda məcburi köçkünlər, sosial cəhətdən zəif təmin olunmuş zavallı insanlar, əlil uşaqlar və əhalinin digər təbəqələri ilə geniş miqyaslı fövqəladə yardım proqramları həyata keçirilirdi. 1999-cu ildən başlayan dəyişkənlik və dinamik inkişaf prosesi Federasiya tərəfindən həyata keçirilən fəaliyyətlərin mərhələli şəkildə AzQAC-a keçməsi və bununla AzQAC-ın humanitar tələblərə səmərəli cavab verməsindən ibarət olmuşdur. Yardımdan İnkişafa doğru olan fəaliyyətlər və AzQAC-a daha çox öhdəliklərin verilməsi əlbəttə ki, uzun müddətli bir vəzifədir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əsas üstünlüklərindən biri ondan ibarətdir ki, ölkənin hər bir bölgəsində ehtiyacı olan insanlara xidmət edən yerli bölmələri mövcuddur. Məhz bu yerli bölmələr sayəsində AzQAC ehtiyacı olan insanlara müvafiq humanitar yardımları vaxtında və səmərəli çatdırılmasını təmin edir. Ötən 2 il ərzində AzQAC-ın yerli bölmələrinin fəaliyyətində nəzərə çarpacaq dərəcədə dönüş yaranmışdır. Xüsusilə cəbhəyanı bölgələrdə olan yerli bölmələrin işçi heyəti və könüllüləri Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə həyata keçirilən "Silahlara qarşı mübarizə", "Təhlükəsiz Oyun Meydançası" layihəsində və iqtisadi təhlükəsizliklə bağlı qiymətləndirmə prosesində və itkin düşmüş şəxslərin ailə üzvləri arasında aparılan sorğularda fəal iştirak etmişlər.




**Dioqram 2.**
**Üzvlərin sayı**

## VƏZİFƏLƏR

**Vəzifə 1. AzQAC ölkə üzrə ehtiyacı olanlara yardım və xidmətlərin göstərilməsi sisteminin yaradılması.**

-AzQAC Humanitar yardım siyasətinin AzQAC rəyasət heyətində təsdiqlənməsi və icrasının təmin edilməsi;

-Yerli və beynəlxalq müstəvidə ehtiyacı olan insanların humanitar və sosial yardımla təmin edilməsi və onun daha səmərəli olaraq həyata keçirilməsi;

-İdarə və müəssisələrdə Cəmiyyətin İlk təşkilatları vasitəsilə üzvlük haqqlarının mərkəzləşdirilmiş qaydada yığımının təmin edilməsi;

-İcra, özünüidarəetmə strukturları və digər təşkilatlarla yerli bölmələr səviyyəsində əməkdaşlığın inkişaf etdirilməsi;

-AzQAC-ın nizamnaməsinin kitabça formasının hazırlanması və çap edilməsi;

-2015-ci ilə qədər QAC üzvlərinin sayının 350000 nəfərə çatdırılması.

**Vəzifə 2. AzQAC öz xidmət etdiyi icmaların adından çıxış etməni nümayiş etdirir**

-AzQAC-ın missiyasına uyğun olaraq yerli bölmələrin ehtiyaclarının yerlərdə müəyyən edilərək müvafiq fəaliyyətlərin həyata keçirilməsi;


TANOOR SANAT
Azərbaycan Qızıl Aypara Cəmiyyəti
Azerbaijan Red Crescent Society
KARAT

-AzQAC Katibliyi tərəfindən yerli bölmələrinin işçi heyətinin bilik və peşəkar səviyyələrinin yüksəldilməsi məqsədilə təlim və treninqlərin keçirilməsi;

-AzQAC yerli bölmələrinin müasir kompüter və s. texniki avadanlıqlarla, ofislərin standart logo ilə təchiz edilməsi.

**Vəzifə 3. BHH-un əsasları və QX/QAH-nın, QX / QA emblemlərindən düzgün istifadə edilməsinin, Fundamental Prinsiplərin yayımı**

-Cəbhə və cəbhəyanı bölgələrdə gənclər üzrə təlimatçıları yayım işinə cəlb etmək və bölgələrdə təlimatçıların yayım işini aparmaq;

-2011-2015-ci illər ərzində BHH-un əsasları və QX / QAH-nın, Fundamental Prinsipləri, QX / QA Emblemlərindən düzgün istifadə edilməməsinə qarşı, ali və orta təhsil ocaqlarında, hərbi hissələrdə və ümumi əhali arasında keçirilən kampaniyaların sayını artırmaq.

**Vəzifə 4. Kommunikasiya strategiyasının qurulması və bölmələr səviyyəsində işlənib icra olunması, AzQAC-ın imicinin artırılması.**

-Kommunikasiya strategiyasına dair yerli bölmələr səviyyəsində 8 görüşün keçirilməsi, strategiya üzrə prezentasiyanın aparılması və il ərzində strategiyanın icra olunmasının izlənilməsi;

-Kommunikasiya strategiyası əsasında Regional Mərkəzlərdə və Naxçıvan MR Komitəsində həyata keçirilmiş fəaliyyətlər haqqında məlumatların yayılması;

-sürətli internet şəbəkəsinin çəkilməsi və yerli bölmələrin (@redcrescent.az) domeni ilə elektron poçt ünvanlarının yaradılmasının təşkil olunması;

-Cəmiyyət fəaliyyətləri haqqında məlumatların yerli və xarici KİV, internet səhifələrində və "facebook", "twitter", "youtube"kimi sosial internet şəbəkələrində yayılaraq cəmiyyətin imicinin artırılması, "Qızıl Aypara" brendinin tanıdılması.

## HƏRƏKAT VƏ SOSİAL MEDİA

## FƏALİYYƏT GÖSTƏRİCİLƏRİ

-2015–ci ilin sonunda 47 yerli bölməsi tərəfindən 115 icmada qiymətləndirmə işinin başa çatdırılması və müvafiq fəaliyyətlər həyata keçirilməsi;

-2015 –ci ildə hər bir yerli bölmədə peşəkar kadrlar olması (75 %);

-Cəmiyyətin fəaliyyətləri haqqında məlumatların yerli və xarici KİV, internet səhifələrində və "facebook", "twitter", "youtube"kimi sosial internet şəbəkələrində yayılması;

-AzQAC yerli bölmələrinin 50 %-nə sürətli internet şəbəkəsi çəkilməsi və yerli bölmələrdə "@redcrescent.az" domeni ilə elektron poçt ünvanlarının yaradılması;

-2015-ci ilə qədər AzQAC üzvlərinin sayının 350000 nəfərə çatdırılması.

## FƏALİYYƏTƏ TƏSİR EDƏN AMİLLƏR:

-Yerlərdə baş verə biləcək hər hansı bir təbii fəlakət və ya fövqəladə halın olması;

-Yerli hökumət strukturu tərəfindən dəstəyin olmaması;

-Keçirilən kampaniyalara əhali tərəfindən marağın olmaması;

-Maliyyə dəstəyinin olmaması.

# STRATEJİ MƏQSƏD 5.

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə imkanlarını və maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə, güclü maddi-texniki bazanın yaradılması**

Dövlətin prioritet sahələrindən biri humanitar siyasətin inkişafına yetərincə önəm verilməsi, beynəlxalq humanitar təşkilatların respublikamızda öz nümayəndəliklərini açaraq fəaliyyət göstərmələri, eyni zamanda yerli humanitar təşkilatların fəaliyyətinin müasir tələblər səviyyəsində həyata keçirilməsidir. Bunun üçün yaradılan şərait, bir daha dövlətin vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində həyata keçirdiyi işlərin bariz nümunəsidir.

## VƏZİFƏLƏR

**Vəzifə1. Hökumətlə işin təkmilləşdirilməsi**

-Üzvlük haqqları ilə bağlı AzQAC haqqında qanuna müvafiq dəyişikliyin edilməsi və yaxud hökumətlə Kollektiv Baş Sazişin bağlanması;

-AzQAC Katibliyi üçün əlavə ofis sahəsinin alınması;

-AzQAC-ın fəaliyyətinin mediada, dövlət televiziya və radio kanallarında pulsuz, özəl media və teleradio şirkətlərində güzəştlə işıqlandırılması.

**Vəzifə 2. AzQAC öz proqram və xidmətlərinə yönəldiləcək resursları maksimuma çatdırmaq məqsədilə effektiv təşkilati və fandreyzinq performansını yaratmışdır.**

-Fandreyzinq və gəlir-gətirmə şöbəsinin əsasnaməsinin hazırlanması;

-Fandreyzinq işinin həyata keçirilməsinə dair təlimatın hazırlanması;

-Fandreyzinq və gəlir-gətirmə fəaliyyətinin inkişafı layihəsinin hazırlanması və həyata keçirilməsi üçün donorun tapılması;

-Fandreyzinq siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə siyasətə əlavə və dəyişikliklərin edilməsi;




-AzQAC-ın Fandreyzinq siyasətinə uyğun olaraq yerli bank və digər kommersiya sektorlarını cəlb etməklə birgə fandreyzinq mexanizmlərini işləyib tətbiq etmək.

-Cəmiyyətin fəaliyyətləri ilə əlaqədar layihələrin hazırlanması və donorlara təqdim edilməsi;

-İanələrin operativ və effektiv yığım mexanizmi və mərkəzləşmiş fandreyzinq fəaliyyətinin idarə olunması barədə normativ sənədlərin hazırlanması;

-Federasiyanın 2020-ci il və Cəmiyyətin 2011-2015-ci illər üçün nəzərdə tutduğu strategiyasına uyğun olaraq, Qızıl Aypara Cəmiyyətinin internet səhifəsində ayrıca Fandreyzinq güşəsinin yaradılması. İnternet güşədə ziyarətçilər üçün Cəmiyyətin fandreyzinq fəaliyyəti ilə əlaqədar konkret məlumatlar alınması və operativ ianələrin edilməsinə dair müvafiq imkanların yaradılması;

-İnkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək əhali arasında yerli filantrop və mesenatlıq ideyalarının aşılanması;

-AzQAC-ın əsas tərəfdaşları olan Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Federasiyanı bu işə cəlb etmək;

-Donorlarla AzQAC arasında qarşılıqlı maraqları müəyyən edən əməkdaşlıq sazişlərinin bağlanması;

-Fandreyzinq sahəsində seminar və təlim təşkil etməklə işçi və könüllüləri maarifləndirmək;

-Cəmiyyətin fəaliyyətlərinə donorların marağını artırmaq məqsədilə təqdimatların və müvafiq müraciət formalarının hazırlanması;

-Operativliyin təmin edilməsi məqsədilə fövqəladə fandreyzinq iş planının, elanların və digər standartların hazırlanması;

-Fandreyzinq üzrə könüllülərin stimullaşdırılması və AzQAC tərəfindən regionlar səviyyəsində könüllülər üçün fandreyzinq təlimatlarının təşkili.

**Vəzifə 3. İlk yardım təlimlərindən kommersiya fəaliyyəti kimi istifadə edilməsi və gəlir-gətirmə layihələrinin inkişaf etdirilməsi**

-AzQAC haqqında qanuna müvafiq dəyişikliyin edilməsi və ya müvafiq qurumlarla anlaşma memorandumunun imzalanması (sürücülük vəsiqəsini

alan vətəndaşların icbari qaydada AzQAC-ın ilk yardım kurslarının keçməsi və sertifikatla təmin edilməsi);

-yerli və beynəlxalq şirkətlərin intensiv olaraq pullu İlk yardım kurslarlına cəlb edilməsi.

## FƏALİYYƏT GÖSTƏRİCİLƏRİ

2015-ci ildə yerli və beynəlxalq müstəvidə ehtiyacı olan insanların humanitar və sosial yardımın tam təmin edilməsi;

2012-ci ildə idarə və müəssisələrdə AzQAC üçün üzvlük haqqları mərkəzləşdirilmiş qaydada təmin edilməsi;

2013-cü ildə yerli və beynəlxalq şirkətlərin pullu ilk yardım kurslarlına cəlb edilməsinin tam təmin edilməsi;

2014-cü ildə AzQAC haqqında qanuna müvafiq dəyişiklik edilmişdir (sürücülük vəsiqəsini alan vətəndaşların icbari qaydada AzQAC-ın ilk yardım kurslarının keçməsi və sertifikatla təmin edilməsi);

2011-ci ildə Fandreyzinq siyasətinə əlavə və dəyişikliklər edilərək, onun daha təkmil formaya salınması;

2011-ci ildə Fandreyzinq və gəlir-gətirmə şöbəsinin əsasnaməsi, eyni zamanda fandreyzinq işinin həyata keçirilməsinə dair təlimat hazırlanacaq. Əsasnamə şöbənin hüquq və vəzifələrini, təlimat isə ölkədə fandreyzinq işinin həyata keçirilməsi ilə əlaqədar müvafiq qaydaları müəyyən edəcəkdir;

2012-2015-ci illərdə Fandreyzinq və gəlirgətirmə fəaliyyətinin inkişafı ilə əlaqədar layihənin 3-cü mərhələsində fandreyzinqdən əldə olunan vəsait 2010-cu ilə nisbətən hər ay olmaqla 3 dəfə artacaqdır.

2012-ci ildə internet səhifəmizdə yaradılan güşə vasitəsilə ziyarətçilər, xüsusilə, donorlar Cəmiyyətimiz haqqında ətraflı məlumat alaraq, yardım məqsədilə birbaşa ianələr edəcək, Cəmiyyətin fəaliyyəti ilə əlaqədar layihələrlə tanış olacaqlar;

2015-ciilədək Cəmiyyət Fandreyzinq fəaliyyətindən davamlı olaraq hər ay vəsait toplamaqla, gəliri 2010-cu ilə nisbətən 4 dəfə artıracaqdır;

Şəffaflığın təmin olunması, hesabatların hazırlanması, televiziya və mətbuatda bu prosesin işıqlandırılması səmərəli həyata keşiriləcəkdir.

## FƏALİYYƏTƏ TƏSİR EDƏN AMİLLƏR:

-Yerli hökumət strukturları tərəfindən dəstəyin olmaması;

-Sosial-iqtisadi stabilliyin pozulması;

-Potensial donorların maraq göstərməməsi.





# TARİX

**10 mart 1920-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranma günü

**1920-1991,** Sovet İttifaqı Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Liqasının üzvü

**25 noyabr 1994-cü il**
Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında» qərarı ilə Milli Cəmiyyətin tanınması

**01 noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmışdır.

**26 Noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının daimi, bərabər hüquqlu, həqiqi üzvü seçilmişdir.

**5 Sentyabr 2003-cü il**
Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» Sərəncamı

**31 Yanvar 2004-cü il**
Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, möhtərəm İlham Əliyev «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam imzalamışdır

**08 May 2007-ci il**
Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanun qəbul edilmişdir.



**07 Aprel 2008-ci il**
Azərbaycan Respublikasının prezidenti, zati aliləri, möhtərəm İlham Əliyevin imzaladığı sərəncamla, hər il mart ayının 10-u "Qızıl Aypara Günü" kimi rəsmi qeyd olunur.

**21 İyul 2008-ci il**
Azərbaycan Respublikasının Baş Nazirinin imzaladığı sərəncamla, 668 kv.mr. ofis sahəsi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin daimi istifadəsinə əvəzsiz olaraq verilmişdir.

**12 May 2009-cu il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin daha 2 tibb bacısı "Florense Naytingale" medalına layiq görülmüşdür.

**04 Mart 2010-cu il**
90 illik Yubiley münasibətilə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Cəmiyyətin prezidentini 3-cü dərəcəli "Vətənə Xidmətə görə" ordeni, 16 nəfər əməkdaşımızı "Tərəqqi" medalı ilə ilə təltif etmişdir.

# BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA CƏMİYYƏTLƏRİ FEDERASİYASININ

# 2020

## STRATEGİYASI

*ŞÜURLU OLARAQ, İNSAN HƏYATINI XİLAS ETMƏK*




## BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATI

**Beynəlxalq Qızıl Xaç Komitəsi**
**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası**
**Milli Cəmiyyətlər (Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycanın Milli Cəmiyyətidir)**

ICRC

Neytral və müstəqil bir təşkilat olan **Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK)** müstəsna humanitar səlahiyyəti müharibə və daxili iğtişaş qurbanlarının həyatını və ləyaqətini qorumaq, onlara yardım göstərməkdən ibarətdir. O, münaqişə vəziyyətində Hərəkat tərəfindən həyata keçirilən beynəlxalq yardım fəaliyyətini istiqamətləndirir və tənzimləyir. O, həmçinin, dünyəvi humanitar prinsipləri və humanitar hüququ təbliğ etmək və möhkəmləndirmək yolu ilə əzab-əziyyətlərin qarşısını almağa çalışır. BQXK 1863-cü ildə yaradılmışdır və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının banisidir.

**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası** (**Federasiya**) dünyada ən böyük humanitar təşkilat kimi insanlara heç bir milli və ya irqi fərq qoymadan, dini mənsubiyyəti və ya siyası əqidəsindən asılı olmayaraq yardım edir. **Federasiyanın missiyasının insanpərvərlik gücünü səfərbər etməklə zavalı insanlara yardım etməkdədir.**

1919-cu ildə yaradılmış Beynəlxalq Federasiya onun üzvü olan dünyanın 187 ölkəsinin Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Cenevrədə yerləşən Katiblik və dünyanın hər yerində aparılan işlərə dəstək vermək üçün strateji şəkildə yerləşdirilmiş 61 nümayəndəlikdən ibarətdir.

Beynəlxalq arenada Federasiya ona daxil olan cəmiyyətlərin üzvlərinin rəsmi təmsilçisi kimi çıxış edir. O, milli cəmiyyətlər arasında əməkdaşlığı inkişaf etdirir və onların təbii fəlakətlər, səhiyyə və sosial proqramlara hazırlıq sahəsində imkanlarını möhkəmləndirir.

Milli **Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri** öz dövlət orqanlarına humanitar fəaliyyət sahəsində yardımçı rolunu oynayır və onları təbii fəlakətlər zamanı yardımın göstərilməsi, səhiyyə və sosial proqramlarda iştirak kimi, bir sıra xidmət spektrləri ilə təmin edir. Hərbi əməliyyatlar zamanı milli cəmiyyətlər zərər çəkmiş mülki əhaliyə köməklik göstərir və ehtiyac olduqda onları tibbi xidmətlə təmin edir.



Bütövlükdə Milli Cəmiyyətlər hər il 233 milyondan artıq insana yardım göstərən təxminən 105 milyon könüllü və 300 min əməkdaşı öz sıralarında birləşdirir.

**Bütün Qızıl Xaç və Qızıl Aypara Hərəkatının fəaliyyətinin bir məqsədi var: Ayrı-seçkilik etmədən bədbəxtliyə düçar olmuşlara köməklik göstərmək və bununla da bütün dünyada sülhün bərqərar olmasını təmin etmək.**

# BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATININ FUNDAMENTAL PRİNSİPLƏRİ

## HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

## QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

## NEYTRALLIQ

Hamının ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

## MÜSTƏQİLLİK

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

## KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

## VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

## UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birlərinə kömək etməyə borcludurlar.